## Bütün ölkələrdə özünü təsdiqləyən Şərq Tərəfdaşlığı

**Şərq Tərəfdaşlığı** Avropa İttifaqı, ona üzv dövlətlər və Şərq Tərəfdaşlığı ölkələri arasında əlaqələri dərinləşdirmək və gücləndirməyə yönəlmişdir. Bu təşəbbüs inklüzivlik və fərqləndirmə prinsiplərinə, xüsusi yanaşma və stimullaşdırma əsaslı dərin əməkdaşlığa əsaslanır. “2020-ci ilə qədər 20 praktiki nəticə”, 2020-ci ilin martında qəbul edilən Birgə Kommünike və 2020-ci ilin mayında Avropa İttifaqı Şurası tərəfindən qəbul olunan yekun qərarlara əsaslanaraq Aİ 2020-ci ildən sonrakı dövrdə Şərq Tərəfdaşlıq üzrə bir sıra prioritetlərini təqdim edib. **Beş əsas siyasət hədəfinə** uyğun olaraq təşəbbüsün **iki əsas komponentinə** sərmayələrin yatırılması vasitəsilə bu prioritetlərin Şərq Tərəfdaşlığı ölkələrinin dayanıqlığını artırması gözlənilir.

### Bərpa, dayanıqlıq və islahatlar: 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı üzrə prioritetlər

**5 HƏDƏF**

- **MÖHKƏM,** dayanıqlı və inteqrasiya olunmuş iqtisadiyyatlar üçün
- **ƏTRAF** mühit və iqlim dəyişikliyi sahəsində dayanıqlığın əldə olunması
- **MÖHKƏM,** ədalətli və inklüziv cəmiyyətlər üçün əməkdaşlıq
- **CAVABDEHLİK** daşıyan qurumlar, qanunun aliliyi və təhlükəsizlik üçün
- **DAYANIQLI** rəqəmsal transformasiya üçün əməkdaşlıq

**2 ƏSAS KOMPONENT**

**YATIRIM**

Şərq Tərəfdaşlığı ölkələrində COVID-19 pandemiyası sonrası sosial-iqtisadi bərpa prosesinə dəstək və “yaşıl” və rəqəmsal texnologiyalara keçid vasitəsilə bu prosesin sürətləndirilməsi. Bu dəstək hər bir ölkə üçün əsas təşəbbüslərlə yanaşı, **İqtisadi və İnvestisiya** planını əhatə edir.

**İDARƏÇİLİK**

İslahatlara sərmayələrin yatırılması və ümumi fundamental dəyərlərə hörmət tərəfdaşlığımızın əsasını təşkil edir. Buraya demokratiya, insan hüquqları, qanunun aliliyi sahəsində islahatlar, korrupsiya ilə mübarizədə yardım, gender məsələləri, vətəndaş cəmiyyəti və müstəqil mediaya dəstək daxildir.

## Şərq Tərəfdaşlığı üzrə İqtisadi və İnvestisiya planı

İqtisadi və investisiya planı yeni əsas elementdir. Bu plan çərçivəsində **Şərq Tərəfdaşlığı ölkələrinin** dayanıqlığı və inteqrasiyasının artırılması üçün onların pandemiyadan sonrakı dövrdə bərpası və **iqtisadiyyatlarının dayanıqlı transformasiyası** məqsədilə **Aİ büdcəsindən** qrant, qarışıq maliyyələşdirmə və zəmanətlər şəklində **2,3 milyard avronun** səfərbər olunması nəzərdə tutulub. Bu plan dövlət və özəl sektordan **17 milyard avroya** qədər vəsaitin cəlb olunmasını təmin edə bilər.

Buraya daxildir:

- ✓ **nəqliyyat bağlantılarının** gücləndirilməsi
- ✓ **kiçik və orta sahibkarlıq müəssisələrinin** maliyyə mənbələrinə çıxış imkanı
- ✓ rəqabət qabiliyyətinin artırılması və **Aİ-nin dəyər zəncirlərinə inteqrasiya** üçün sərmayələr
- ✓ **rəqəmsal texnologiyalara keçidə** dəstək
- ✓ enerji səmərəliliyi və **ətraf mühit və iqlimin dayanıqlığına** sərmayələr
- ✓ **səhiyyənin dayanıqlığı** və **insan kapitalı inkişafı**

Plana Şərq Tərəfdaşlığı ölkələrinin hər biri üçün gözəçarpan nəticələr təmin edən konkret prioritet layihələrdən ibarət bir sıra mühüm təşəbbüslər daxildir.

## 2025-ci ilə qədər 10 əsas hədəf

*Son yenilənmə: noyabr 2021*

**Əhatəli proqram** çərçivəsində gələcək prioritet fəaliyyətlər qismində **2025-ci ilə qədər 10 əsas hədəf** müəyyən edilmişdir. Hər bir ölkə üçün qabaqcıl təşəbbüslərlə birgə bu hədəflər vətəndaşların həyatına və müəssisələrin işinə **ən böyük təsiri** göstərəcək.

**Rəqabət qabiliyyətli və innovativ iqtisadiyyata yatırım**
**500 000 KOB** dəstəklənib

**Qanunun aliliyi sahəsinə yatırım**
Bütün yüksək vəzifəli məmurlar **iqtisadi aktivlərini** bəyan edirlər və bu bəyannamələr yoxlanılır

**Təhlükəsizlik və kiberdayanıqlıq sahəsinə yatırım**
**Hibrid təhdidlərin** qarşısının alınması və aradan qaldırılması üçün strukturun gücləndirilməsi; **Kiberdayanıqlığın gücləndirilməsi** və kibercinayətkarlıqla mübarizə üzrə tərəfdaşların potensialının artırılması, Avropa Şurasının “Kibercinayətkarlıq haqqında” Budapeşt Konvensiyasını tam həyata keçirmək daxil olmaqla

**tələbələr, müəllimlər, tədqiqatçılar, gənclər və gənclərlə işləyənlər üçün**
**3 000 km əsas avtomobil yolu və dəmiryolu xətti** tikilib və ya **yenilənib**

**İnsanlara və elmi icmalara yatırım**
**70 000 fərdi yerdəyişmə imkanı**
tələbələr, müəllimlər, tədqiqatçılar, gənclər və gənclərlə işləyənlər üçün

**İnklüziv, genderlərin bərabər olduğu və müxtəlif cəmiyyətlər və strateji bağlantılara yatırım**
**2 500** yerli **vətəndaş cəmiyyəti təşkilatı, 120** müstəqil **kütləvi informasiya vasitəsi** və **2 000** jurnalist dəstəklənib

**Səhiyyə sisteminin dayanıqlığına yatırım**
Peyvəndləmə
**850 000 tibb işçisi peyvənd olunub**
və terapiya, avadanlıq və əmək şəraitinin yaxşılaşmasından faydalanıb

**Dayanıqlı energetika sahəsinə yatırım**
**250 000 Ev təsərrüfatı enerji istehlakını** azı 20% azaldacaq

**Rəqəmsal texnologiyalara keçidə yatırım**
**80% ev təsərrüfatı yüksək sürətli internetə** çıxış əldə edəcək

**Ətraf mühit və iqlim sahəsinə yatırım**
Daha **3 milyon insan etibarlı su təchizatı** ilə təmin ediləcək, **300 şəhərdə havanın təmizliyinə** nəzarət ediləcək və yaxşılaşdırılacaq

#StrongerTogether

#EasternPartnership

EaP Eastern Partnership